BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Sosial-siyasi elmlər seriyası* 2013

**UOT 101.1**

# HÜQUQİ DÖVLƏTİN YARANMASINDA HÜQUQİ QNOSEOLOGİYA, TƏCRÜBƏ VƏ ADƏT-ƏNƏNƏLƏR

**H.Q.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***ho2039@mail.ru***

*Məqalədə hüquqi dövlətin mahiyyəti, hüquqi dövlət haqqında baxışlar, hüquqi qnoseologiya geniş şəkildə işıqlandırılmışdır. Hüquqi dövlətin yaradılması və mövcudluğu şərtləri, onun inkişafında təcrübə və adət-ənənələrin rolu göstərilmişdir. Bundan başqa hüquqi dövlət və vətəndaş cəmiyyətinin mövcudluq prinsipləri izah olunmuşdur.*

**Açar sözlər:** dövlət, hüquq, qanun, vətəndaş, cəmiyyət, azadlıq, hakimiyyət

Hüquq meydana gəldiyi andan nəinki ictimai münasibətlərə təsir vasitəsi, həm də dövlət hakimiyyətinin normal fəaliyyətinin amili kimi çıxış edir. Dövlət hakimiyyətinin hüquqi əsasının müəyyənləşdirilməsi problemi fəlsəfi hüquqi fikrin xüsusi obyektini təşkil edir. Platon yazırdı ki, qanun qüvvəyə minmədiyi və kiminsə hakimiyyəti altında olduğu yerdə dövlətin tezliklə məhv olacağını hiss edirəm. Qanunun hökmdarlar üzərində hakim olduğu, onların qanunun köləsinə çevrildiyi yerdə isə dövlətin xilas olmasını və bütün xoşbəxtliyi görürəm. Bunu yalnız allah dövlətə bəxş edə bilər (4, 87). Bu fikirlə razılaşan Aristotel qeyd edirdi ki, qanun hamının üzərində hökmranlıq etməlidir, vəzifəli şəxslər və xalq yığıncağı isə yalnız xüsusi məsələlər həlli ilə məşğul olmalıdır (1, 113).

Siseron dövləti özünün mahiyyətinə görə hüquqi birlik hesab edirdi. Onun fikrincə, dövlət xalq işi olub "hüquq və mənafe ümumiliyi məsələsində çoxlu adamlar arasında razılıq əsasında yaranan birlikdir". Siseronun ideyaları dövlət haqqında hüquqi təsəvvürlərin inkişafında mühüm rol oynayırdı. Dövlətin hüquqi birlik olması ideyası yalnız yeni dövrdə nəzəri cəhətdən əsaslandırılır. Hüquqi münasibətlərin yenidən təşkili tarixində həlledici hadisə C.Lokk tərəfindən hazırlanan hüquqi dövlət konsepsiyası oldu. Hüquqi dövlət haqqında layihənin praktiki olaraq reallaşdırılması məhz Lokka məxsusdur. Onun hazırladığı bu layihə 1669-cu ildə İngiltərənin Amerikadakı müstəmləkəsi olan Karolinanın konstitusiyasında öz əksini tapmışdır.

Hüquqi dövlət yaradılması istiqamətində mühüm addım praktikada reallaşa bilməyən Fransa inqilabının Konstitusiyası və ABŞ Konstitusiyası hesab olunur. ABŞ konstitusiyası ilk və ən sabit Konstitusiyalardandır. Hüquqi dövlət idealını yeni səviyyədə əsaslandıran klassik alman fəlsəfəsinin nümayəndəsi İ.Kant olmuşdur. Kantın xidməti bundan ibarətdir ki, hüquq və dövlət anlayışı haqqında məsələ onun fəlsəfəsində metodoloji səpgidə irəli sürülürdü. Kantın fəlsəfi təlimi hüquqi fikrin sonrakı inkişafına böyük təsir göstərdi. Dövlət tipi olmaq etibarilə hüquqi dövlətdə konstitutsiya idarəçiliyi rejimi fəaliyyət göstərir, inkişaf etmiş və ziddiyyətli olmayan hüquq sistemi və səmərəli məhkəmə hakimiyyəti mövcuddur, o, hakimiyyətin bölünməsi ilə səciyyələnir, siyasət və hakimiyyət inkişaf etmiş nəzarətə malikdir. Hakimiyyət və siyasət sisteminin ümumi demokratik vəzifələri onun hüquqi mexanizmi ilə üzvi surətdə bağlıdır. Hüquqi dövlətin əsasını hakimiyyətin, vətəndaşın, cəmiyyətin qanun qarşısında hüquqi bərabərliyi təşkil edir.

Hüquqi dövlət cəmiyyətdə dövlət quruculuğu çərçivəsində xalqın suverenliyinin həyata keçirilməsinin hüquqi normasıdır. Yəni hakimiyyət səlahiyyətləri dövlətin əlindədir. Lakin bu səlahiyyətlər xalq tərəfindən qəbul edilmiş və qanuniləşdirilmiş hüquqi normalara əsaslanır.

Hüquqi dövlət – hüquq dövləti söz birləşməsi "hüququn dövləti", "hüququn hər şeydən üstün olduğu dövlət", "hüquqa əsaslanan dövlət" mənalarını verir. Əslində bunlar, demək olar ki, eyni mənaları verir. Çünki hüquqa əsaslanan dövlətdə hər şeydən üstün hüquq hesab edilir.

"Hüquqi dövlət" – hüquq dövləti söz birləşməsində, göründüyü kimi, birinci yerdə hüquq, ikinci yerdə dövlət durur. Deməli, bu dövlətdə hüquq dövlətdən əsasdır, dövlət hüquqa tabedir. Hüquqi dövlətin əsas şərtləri aşağıdakılardır:

Birinci şərt qanunun aliliyidir. Dövlət də, onun bütün orqanları da, hər cür kollektivlər və vətəndaş birlikləri də, insanın ictimai vəziyyətindən, tutduğu vəzifədən asılı olmayaraq, ayrı-ayrılıqda hər bir şəxsiyyət də qanuna tabe olmalıdır.

Qanunun aliliyi cəmiyyətdə özbaşnalıqlara, təzyiq və represiyalara yol vermir. Hüquqi dövlət quruculuğunda ciddi uğurlar qazanmış Azərbaycan Respublikasında da qanunun aliliyi prinsipi gözlənilir. Konstitusiyamızın 7-ci maddəsində göstərir ki, Azərbaycan hüquqi dövlətdir. Burada dövlət hakimiyyəti orqanları yalnız öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərə bilərlər. Bu çərçivə isə qanunlardır. Deməli, bizdə qanun bütün dövlət orqanlarının başının üstündə durur və onların özbaşnalığına yol vermir.

İkinci şərt – qanuna riayət olunmasına nəzarət etmək üçün təsirli bir sistemin olmasıdır. Qanunun həyata keçirilməsinə nəzarəti xüsusi olaraq yaradılmış müstəqil məhkəmələr, arbitrajlar və s. yerinə yetirilməlidir.

Demokratik dövlətlərdə vətəndaşlar, bir qayda olaraq qanuna tabe olurlar, çünki başa düşürlər ki, dolayı yolla da olsa, onlar özləri qanunun yaranmasında iştirak edirlər Lakin qanunçuluq prinsipi özü-özlüyündə hələ

demokratiyaya təminat vermir. Qanunçuluq özünün tam əksinə - qanunsuzluğa da çevirə bilər. Qanunçuluq yalnız o halda mövcud olur ki, o, həyata keçirilsin. Bu o deməkdir ki, qanunçuluq, hər şeydən əvvəl, onun effektivliyidir.

Üçüncü şərt – hakimiyyətin qanunverici və məhkəmə hakimiyyətlərinə bölünməsidir. Bu o deməkdir ki, heç bir dövlət orqanı tam həcmdə bütöv dövlət hakimiyyətinə malik deyil. Hər bir dövlət orqanı ancaq öz üzərinə düşən funksiyanı yerinə yetirir. O, başqa orqana aid olan fəaliyyəti icra etmək hüququna malik deyil. Bununla belə, bir dövlət orqanı birilərinə nisbətən üstün mövqeyi malikdir. Bu, qanunverici orqandır. Səbəbi də məlumdur ki, hüquqi dövlətdə qanunlar əsas rol oynayır. Bütün hüquqi dövlətlərdə qanunverici orqan parlamentdir. İcra hakimiyyəti prezidentə, parlamentə və s. aiddir. Qanunların keşiyində duran isə üçüncü hakimiyyət orqanı olan məhkəmə hakimiyyətidir.

Hüquqi dövlət haqqında ideyalar iki başlıca prinsip əsasında – dövlətdə qaydalara əməl etmək və vətəndaşların müdaifə olunması ilə başlanır. Burada hər bir adam qəbul olunan qərarların nəticələrini, ardıcıllığını və ümidverici olmasını nəzərə almaq hüququna malikdir, eləcə də qanunla dəqiq müəyyənləşdirilən öz hüquq və vəzifələrini başa düşür. Hüquqi dövlətin başlıca ictimai həyatın bütün sferalarında öz vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə təminat verməkdir. Bu məqsədə çatmaq üçün vətəndaşlar öz növbəsində qanunlara və mövcud sistemin təsisatlarına hörmətlə yanaşmalıdırlar.

Hüquqi dövlət hamı üçün vahid və məcburi olan hüquq qaydalarını, sosial, irsi və digər statusdan asılılıq kəsb edən qeyri-bərabərliyin və müxtəlif hüququn ləğvini nəzərdə tutur. Hazırda bütün vətəndaşların hüquqlarının eyni dərəcədə təmin olunması prinsipi qərarlaşır.

Hüquqi dövlətin başlıca təsisatalarına və prinsiplərinə aşağıdakılar daxildir: Müxtəlif siyasi partiyalar və təşkilatlar vasitəsilə yaradılan nümayəndəlik; seçki sistemi; parlamentarizm, konstitutsiyalıq və hakimiyyətin bölünməsi; dinin dövlətdən ayrılması; ideologiyanın dövlətdən kənar olması; azadlığın bərabərlik üzərində üstünlüyü (8, 543).

Hüquqi dövlət daim normalar və qaydalar kompleksi ilə öz-özünü məhdudlaşdırır. Onların içərisində hakimkiyyətin üç qola ayrılamsı norması mərkəz yer tutur. Hər hansı hakimiyyət özünün ciddi ümumi funksiyalarını həyata keçirir, lakin birgə fəaliyyətində bir-birini tarazlaşdırır, demokratik normaların pozulmasına və hakimiyyətdən sui-istifadə edilməsinə qarşı təminat yaradırlar. Bununla yanaşı, dövlətin vətəndaşaları ümumi seçki sistemi və seçki prosesi vasitəsilə hakimiyyətə nəzarətin bu prinsipi hələ alman filosofu İ.Kant tərəfindən qeyd olunmuşdur. Kanta görə hər bir vətəndaş idarə edənləri məcbur etməlidir ki, onlar qanunları dəqiq və sözsüz yerinə yetirsinlər, eləcə də qanunu idarə edənlər bunu vətəndaşlardan tələb etməlidirlər. Bir sözlə, qanunvericilər də siravi vətəndaş kimi qanun tabe olmalıdır.

Qanuni hakimiyyət özünün qərarlaşması və möhkəmlənməsi üçün hüquq formasında idarə olunur. Çünki güc özü-özlüyündə hakimiyyəti yarada bilməz.

Dövlət hüquqla, hüquq normaları ilə bağlıdır, buna görə o, belə bir qüvvədir ki, məhz, hüquqa xidmət göstərilməlidir. Bu isə onun ifadəsidir ki, dövlət insan hüquqlarına zidd qanunlar yarada bilməz. Hüquqi dövlətdə hüquq ayrıca fərdin azadlığının təminatçısı kimi çıxış edir. Fərdin hüququnun qorunması belə bir cəhəti ifadə edir ki, o, istədiyi yerdə yaşamaq, həyat tərzi seçmə fəaliyyət sferasını və növünü azad müəyyənləşdirmək hüququna malikdir. Hüquq şəxsiyyətin, mülkiyyətin, mənzilin, xüsusi həyat tərzinin, mənəvi azadlığın və sairənin toxunulmazlığını təmin edir. Cəmiyyətdə insanlar yox, qanunlar hökmranlıq etməlidir. Dövlət vətəndaşlar arasındakı münasibətləri hüquq əsasında tənzimlənməlidir. Demokratik hüquqi dövlətin hamıya aydın görünən əlamətləri bunlardır: siyasi proseslər iştirak hüququ; siyasi partiyalar, müxtəlif maraq qrupları arasında müəyyən qaydaların gözlənilməsi; ümumi seçki prosesində hakimiyyətin bütün səviyyələrində dəyişikliyi; parlamentarizmin və plüralist demokratiyanın digər norma və prinsipləri. Hüququ dövlətin vəzifəsi bundan ibarətdir ki, mübahisələri və mübahisəli problemləri gücə və qeyri-qanuni hallara əsaslanan formada deyil, məhz dinc vasitələrlə həll etsin. Hüquqi dövlətin mahiyyəti odur ki, burada bütün vətəndaşlar, prezident, general, siravi əsgər, zavod direktoru və ya fəhlə və s. qanun qarşısında bərabərdir və onun pozulmasına görə bərabər məsuliyyət daşıyırlar (5,149).

ABŞ-ın keçmiş prezidenti R.Niksona aid olan misal buna nümunədir. Nikson amerika xalqı və eləcə də dünya birliyi qarşısında xidmətləri danılmazdır. Təsadüfi deyil ki, o, dalbadal iki dəfə (1968 və 1972)-ci illərdə) öz rəqibləri üzərində böyük üstünlük qazanmaqla prezident seçildi. Lakin seçki kompaniyası ərəfəsində R.Niksonun komandası bəzi hüquqa zidd hərəkətlərə yol vermişdir. Bunu bilən prezident üzə çıxarılan məlumatları istintaq orqanlarından gizlədir. Həmin məlumat ictimaiyyətə və hüquq mühafizə orqanlarına məlum olduqda prezidentin məhkəmə yolu ilə hakmiyyətdən uzaqlaşdıracağı təhlükəsi ortaya çıxdı. Məhkəmədən qaçmaq və həbs olunmaqdan yayınmaq məqsədilə Nikson istefa verməyə məcbur oldu. Beləliklə, amerika prezidenti sadə vətandaşla bir səviyyədə qanun qarşısında dayanmalı oldu.

Hüquq dövlət özünün formalaşması və qərarlaşması prosesində nəinki fərdi azadlığın və hüququn qanunvericiliklə təmin olunmasını işləyib hazırlayır və möhkəmləndirir, həmçinin vətəndaş cəmiyyətinin normaı mövcudluğu və fəaliyyəti, onun başlıca təsisatları, prinsipləri və dəyərləri üçün həlledici təminat yaradır. Hüquqi dövlət vətəndaş cəmiyyəti ilə bir sıra ümumi və birləşdirici hüquqi əsasa malikdir ki, bu da mahiyyət etibarilə ümumbəşəri xarakter daşıyır.

Yalnız bu mənada qanunvericilikdən qanun yaradıcılığı, hüququn əsaslarının və tələblərinin ümumməcburi qanunun konkret normalarında yaradıcı ifadəsi kimi söz açmaq mümkündür.

Qanunun (pozitiv hüququn) hüquqi təzahür kimi dərki həm də qanunun ümummәcburiliyi, onun dövlət müdafiəsi ilə təmin edilməsi, hüquq pozucuları barəsində məcburetmə tədbirlərinin tətbiqinin mümkünlüyü probleminin

müvafiq izahını ehtiva edir. Qanun (pozitiv hüquq) sansiyalarının belə spesifikliyi, hüquqi qnoseologiyaya əsasən, qanunvericinin iradəsi ilə deyil, hüququn obyektiv təbiəti ilə şərtlənir. Bu isə onu ifadə edir ki, belə sanksiya yalnız hüquqi qanun mövcud olduqda hüquqa uyğundur və hüquqi cəhətdən əsaslıdır.

Hüququn obyektiv ümuməhəmiyyətliliyinin dövlət tərəfindən tanınması, normativ surətdə konkretləşdirilməsi və müdafiə olunmasının zəruriliyi həm də cəmiyyətin dövləti-mütəşəkkil həyatı şəraitində hüquq və dövlətin zəruri əlaqəsini ifadə edir. Belə hüquq-qnoseoloji izahın mənasına görə, dövlət hüquqi institut, hüquqi qanunun təsbiti və müdafiəsi üçün ümuməhəmiyyətli hüququn ümumməəcburi qanun səviyyəsinə yüksəldilməsi üçün zəruri institut kimi çıxış edir. Belə yanaşmaya görə, zorakılıq yalnız hüquqi qanunun dövlət sanksiyası formasında hüquqa uyğundur.

Hüququn və qanunun (pozitiv hüququn) fərqinin və nisbətinin hüquqi-idraki modeli hüquq nəzəriyyəsi və təcrübəsi sahəsində bütün önəmli uğurların əsasında durur. Məhz belə qnoseoloji mövqedən insanın ayrılmaz hüquq və azadlıqları, hüququn hökmranlığı, hüquqi qanun, hüquqi dövlət və s. ideyalar və prinsiplər ifadə olunmuş, sonra isə rəsmən tanınmış və inkişaf etmiş milli hüquq sistemlərində və beynəlxalq hüquq aktlarında qanunvericilik qaydasında təsbitini tapmışdır. Belə yuridik hüquq anlamı ilə hüququn insani ölçüsü, hüquqi dəyərlər, zoraki qanunun və zoraki idarəetmə üsullarının, siyasi hakimiyyətin təşkilinin və həyata keçirilməsinin zoraki tipinin antihüquqi mahiyyəti məsələsinin qoyuluşu ilə bilavasitə bağlıdır.

Hüquqi qnoseologiyanın predmet sahəsi spesifik sosial obyekt kimi hüququn dərkinin nəzəri problemlərini əhatə edir. Hüquqi qnoseologiyanın əsas vəzifəsi hüququn dürüst dərkinin ilkin şərtlərinin öyrənilməsindən, hüquq və hüquqi təzahürlər haqqında həqiqi biliyin əldə edilməsindən ibarətdir.

Hüquq fəlsəfəsinin nəzərdən keçirilən konsepsiyası çərçivəsində hüquqi qnoseologiyanın hüquq ontologiyası və aksiologiyası ilə ümumi əsası və sıx əlaqəsi bununla şərtlənir ki, onlar eyni libertar-hüquqi hüquq anlamının müxtəlif aspektlərini ifadə edirlər.

Hüquq və qanunun nisbəti problemi də hüquqi qnoseologiya baxımından aparıcı əhəmiyyətə malikdir. Hüquqi qnoseologiyanın ilkin mövqeyi və aparıcı ideyası qüvvədə olan hüquqa idraki münasibətdən, onun obyektiv təbiətinin nəzəri cəhətdən qiymətləndirilməsinə, rolunun və təyinatının aydınlaşdırılması-na, onun həqiqətinin dərkinə cəhd göstərməsindən ibarətdir. Hüquq təlimlərinin nəzəriyyəsi və tarixi göstərir ki, bu idrak yolu təbii və pozitiv hüququn nəzəri dərki və öyrənilməsi sahəsində zəruri fikrin ilkin şərti və ilkin idrak sxemi qismində fərqləndirilməsinə gətirib çıxarır.

Təbii və pozitiv hüququn fərqləndirilməsi hüquq fikri tarixində faktiki mövcud pozitiv hüquq haqqında nəzəri refleksiyanın qnoseoloji baxımdan zəruri forması və belə refleksiyanın nəticələrinin təsbitinin adekvat üsulu kimi çıxış edir.

Qanunun hər hansı nəzəri dərki onun rəsmi mövcudluğu və empirik

məzmunu ilə kifayətlənməyərək, onun obyektiv əsaslarının və keyfiyyətlərinin, hüquqi mənasının və əqləuyğunluğunun, hüquqi təbiətinin və mahiyyətinin axtarışında labüd surətdə dərk olunan obyektdən abstraksiya olunur və nəzəri dərketmə və öyrənməsinin nəticəsi kimi fikrən onun modelini qurur.

Ontoloji baxımdan hüququn və qanunun fərqləndirilməsi konsepsiyası "hüquq nədir?" sualını cavablandırarkən, hüququn obyektiv mahiyyət xassələrini açıqlamağa imkan verir.

Həmin xassələrin qanunda mövcudluğu onu hüquqi təzahür, yəni hüququn mahiyyətinə uyğun təzahür, hüquqi mahiyyətin zahiri təzahürü və gerçəkləşməsi kimi xarakterizə etməyə imkan verir.

Aksioloji baxımdan həmin konsepsiya hüquq dəyərlərinin obyektiv təbiətini və spesifikliyini açıqlayır.

Hüquq lazımlılığın xüsusi forması, məqsəd və dəyər başlanğıcı kimi faktiki mövcud qanunun və dövlətin dəyər-hüquqi əhəmiyyətini müəyyən edir.

Nəzəri-idraki baxımdan bu konsepsiya hüququn müəyyən anlayışı şəklində qanun haqqında biliyin və həqiqətin nəzəri dərkinin və ifadəsinin zəruri qnoseoloji modeli kimi çıxış edir.

Beləliklə, həminn konsepsiya hüquq haqqında sadə rəydən həqiqi biliyə - hüquq haqqında həqiqət biliyinə, hüququn anlayışına, yəni hüququn obyektiv xassələri, təbiəti, mahiyyəti, hüququ və təzahür formaları haqqında nəzəri biliyə idraki keçid prosesini ifadə edir. Bu mənada hüquq və qanunun nisbətinin və fərqinin və müxtəlif versiyaları və variantları hüquq anlamının müəyyən qnoseoloji kimi hüquqa nəzəri yanaşmanın, nəzəri-hüquqi fikir sahəsində tarixi tərəqqinin yaranmasının, dərinləşməsinin və inkişafının mərhələləri və pillələri kimi çıxış edir.

Hüquqi qnoseologiya çərçivəsində hüququn və qanunun fərqləndirilməsi onların nisbətinin bütün mümkün formalarını nəzərdə tutur və ehtiva edir. Eyni məntiq hüquq və dövlət arasında münasibətlərə tətbiqən qüvvədədir və hüquqi qnoseologiya baxımından hüquqi və antihüquqi bütün diapazonunda izah olunur.

Hüquqi qnoseologiyanın ümumi çərçivəsi daxilində hüququn və qanunun fərqləndirilməsinin müxtəlif konsepsiyaları qnoseoloji baxımdan da spesifik xüsusiyyətlərə malikdir.

Belə ki, hüquqi yusnaturalizm konsepsiyalarında əsas qnoseoloji səylər təbii hüququn bu və ya digər versiyanın təsdiqinə və onun qüvvədə olan pozitiv hüquqdan ayrılmasına və qarşılaşmasına yönəlmişdir.

Belə yanaşmada hüquqi qanun ideyasının özü və bütövlükdə təbii və pozitiv hüququn qarşılıqlı əlaqəsinin aspektləri, qüvvədə olan təbii hüququn müddəalarına və tələblərinə uyğunlaşdırılması problemləri və s. məsələlər diqqət mərkəzindən kənarda qalır. Bu mənada demək olar ki, hüquqi yusnaturalizm nümayəndələrini qüvvədə olan hüquq və onun təbii hüquq tələblərinə müvafiq surətdə təkmilləşdirilməsindən daha çox təbii hüquq və onun "həqiqi hüquq" kimi təsdiqi maraqlandırır.

Hüquqi yusnaturalizmə xas olan iki paralel mövcud olan rəqib hüquq sistemi - həqiqi, təbii hüquq və rəsmi (pozitiv) hüquq haqqında təsəvvür məhz buradan qaynaqlanır. İki eyni vaxtda mövcud olan hüquq sisteminin bu dualizmi və paralelizmi bütövlükdə təbii-hüquqi təsəvvürlərin təsiri altında qalan fəlsəfi-hüquqi konsepsiyalarda aradan qaldırır, lakin təbii hüquq dedikdə hüququn ideyası, mənası, mahiyyəti və s. nəzərdə tutulur. Düzdür, hüququn və qanunun fərqləndirilməsinin bu fəlsəfi konsepsiyalarında da hüquq ideyası hüquqi yusnaturalizmdə olduğu kimi qüvvədə olan hüquqi qismində çıxış etməsə də, hüquqi qanunun anlayışına çatdırılmır.

Libertar hüquq anlamı konsepsiyasında vəziyyət fərqlidir, burada diqqət mərkəzində məhz hüquq və qanunun əlaqəsi, hüququn obyektiv xassələrinin qanunun mahiyyət xassələri və qanunun hüquqi keyfiyyətinin meyarı kimi dərki və izahı problemləri, hüquqi qanunun anlayışının işlənilməsi məsələləri və s. durur. Bu isə hüquqi-qnoseoloji yanaşma baxımından hüquq və qanun haqqında həqiqət qismində hüquqi qanunun təbiəti, xassələri və xarakteristikası, onun qüvvədə olan qanun kimi təsdiqinin ilkin şərtləri haqqında obyektiv elmi kimi çıxış edir. Belə hüquqi-qnoseoloji yanaşma özünün təbiəti etibarilə obyektiv olan hüququn formalaşması prosesinin və qanunun ifadəsi üzrə subyektiv prosesin fərqini və nisbətini aşkara çıxarmağa və hüququn pozitivləşməsini hüquqi tənzimlənmənin konkret sahələrinə və münasibətlərinə tətbiqən hüquqi formal bərabərlik prinsipinin normativ konkretləşdirilməsindən ibarət yaradıcı proses kimi təhlil etməyə imkan verir.

Dövlət anlayışına qısa olaraq xarakteristika versək onda qanuni olaraq müəyyən edilən hüquqi-konstitusion qayda və normaların başlıca prinsip olaraq əsasında qurulan və bu çərçivədə fəaliyyət göstərən hüquqi dövlət adlandırmaq olar. Məhz hüquqi dövlət dedikdə eyni zamanda strukturun, yəni quruluş, idarə formaları və siyasi rejimlərin də normalara müvafiq olması mütləqdir. Belə ki, bu cür dövlət sözün əsl mənasında liberal qanunvericiliyə, demokratik icraedici və konstitusion hakimiyyətə, insanların bütüb təbii və əvtəndaş hüquqlarını təmin edən və eyni zamanda onlara hörmət edən hüquqi normalara və insanlararası azad münasibətlərin yer aldığı vətəndaş cəmiyyətinə malikdir.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti. Nə dərəcədə doğrudur və labüddür bunların birgə vəhdət təşkil etməsi?

Müasir demokratikləşmə şəraitində bu vəhdətin vacib, ən başlıca şərt olduğunu söyləmək bu suala konkret olaraq cavab vermək deməkdir. Çünki vətəndaş cəmiyyəti və hüquqi dövlət demokratiyanın əsasında duran və onun dinamiklik səviyyəsini göstərən əsas ilkin amilidir.

Ümumiyyətlə dövlət ilə cəmiyyət hər zaman eynilikdə götürülmüş və buna haqq qazandırmaq üçün əslində vətəndaş cəmiyyətini siyasi cəmiyyət adlandırmışlar. XVII əsrə qədər cəmiyyət anlayışı dövlətdən ayrılmırdı. İlk dəfə olaraq vətəndaş cəmiyyətini siyasi cəmiyyətdən ayıran C.Lokk hesab edirdi ki, dövlət cəmiyyətə təsir etməməli, əksinə onu öz təsirindən qorumalıdır. Lokk xüsusi mülkiyəytin tərəfdarı idi və haqlı olaraq iqtisadi

münasibətlərin doğurduğu mühiti dəstəkləyirdi. T.Hobbs da “Dövlət və cəmiyyət bölünür” deməklə bu ideyanın tərəfdarı kimi çıxış edir və bu istiqamətdəki Russo, Monteskyö nəzəriyyələri ilə razılaşırdı. Onlar vətəndaş cəmiyyətindən danışarkən hakimiyyətin bölgü prinsiplərinə də münasibət bildirirdilər. Bölgü prinsipi dövlətin və hakimiyyətin simasını dəyişir, parlament və məhkəməni gücləndirir, avtonomluq verir. Əlbəttə ki, parlament və məhkəmə də gücləndikcə vətəndaş cəmiyyətinin inkişafına gətirib çıxarır.

Vətəndaş cəmiyyəti haqqında olan təsəvvürlərin kökləri Qərb siyasi nəzəriyyəsi və sosial fəlsəfəsinin ənənələrinə dayanır.

İlk dəfə XVIII əsrdə irəli sürülən vətəndaş cəmiyyəti anlayışı XIX əsrdə dövlət müdaxiləsindən kənarda mövcud sosial qurumu xarakterizə edən məfhum kimi öz yerini almışdı. Vətəndaş cəmiyyəti nəzəriyyəsi haqqında zaman-zaman müxtəlif fikirlər mövcud olmuşdur.

İlk başlanğıcda fəlsəfi konsepsiya kimi yaranan vətəndaş cəmiyyəti ideyası tədricən Qərbdə siyasi fikrin və azadlıq hətəkatının mərkəzi probleminə çevrildi.

Vətəndaş cəmiyyəti heç bir təşkilati mərkəzə malik olmayan cəmiyyətdir. Vətəndaş cəmiyyətini təşkil edən təşkilatlar və birliklər öz-özünə yaranır. XVII əsrin ortalarında T.Hobbs “Vətəndaş haqqında” (1642) və “Leviafan” (1651) adlı əsərlərində vətəndaş cəmiyyətinə dair irəli sürmüşdür. Sonralar vətəndaş cəmiyyətinə, onun azadlıq, hüquq, borc, əxlaq, mülkiyyət problemlərinə dair konsepsiyanı ən görkəmli mütəfəkkirlərdən C.Lokk, J.J.Russo, İ.Kant və başqaları işləyib hazırladılar. İ.Kant qeyd edirdi ki, bu və ya digər fərdin azadlığı ilə hamının azadlığının nisbətində başlıca amil vətəndaş cəmiyyətinin formalaşmasıdır. V.P.Puqaçev və A.İ.Solovyov isə yazırdı ki, Vətəndaş cəmiyyəti azad və bərabər hüquqlu fərdlərin bazar və demokratik hüquqi dövlətçilik şəraitində dövlət vasitəsilə tənzimlənməyən qarşılıqlı münasibətlərinin çoxcəhətliliyidir. Vətəndaş cəmiyyəti aşağıdan öz-özünə təşəkkül tapan ictimai orqanizm olmaqla xüsusi mənafelərin və fərdçiliyin azad oyun sferasıdır. K.S.Hacıyevə görə mülkiyyətin milliləşdirilməsi hökmən vətəndaş cəmiyyətinin milliləşdirilməsinə gətirib çıxarır. Buna görə aydındır ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət bir-birini şərtləndirir və biri digəri üçün həyat qabiliyyəti şəraiti yaradır, lakin bir-birini əvəz etmirlər (2,257).

Q.F.Slesarova vətəndaş cəmiyyətinə belə tərif verir ki, Vətəndaş cəmiyyəti demokratik dövlətdə formalaşan və inkişaf edən insan birliyi olub iki cəhəti ifadə edir: 1) cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını (birliklər, təşkilatlar, assosiasiyalar, ittifaqlar, mərkəzlər, klublar, fondlar və s.) və 2) iqtisadi, siyasi, sosial, mənəvi, dini və digər qeyri-dövlət münasibətlərinin məcmuu.

1) bunu demək olar: vətəndaş cəmiyyəti yüksək inkişaf etmiş demokratik cəmiyyətin əlamətidir.

2) vətəndaş cəmiyyətini təşkil edən birliklər vətəndaşların iqtisadi, hüquqi, mədəni və digər mənafelərini təmin etmək məqsədilə yaranır.

3) vətəndaş cəmiyyətini əmələ gətirən bütün təşkilatlar dövlət vasitəsilə deyil, vətəndaşların özü və müəssiələr tərəfindən yaradılır, dövlətə münasibətdə müstəqil xarakter daşıyır.

Vətəndaş cəmiyyəti probleminə dair müxtəlif təsəvvürləri ümumiləşdirməklə onunla dövlətin nisbətinə dair bir neçə konseptual müddəalar söyləmək olar:

1. "vətəndaş cəmiyyəti" və "dövlət" anlayışları müxtəlif cür səciyyələnir. Cəmiyyətin bir-birilə daxili əlaqəsi olan, bir-birini tamamlayan tərəfləridir, vahid ictimai orqanizmin ünsürləridir.
2. vətəndaş cəmiyyəti siyasi sistemin əsasında durur, dövlət onunla şərtlənir və müəyyən olunur. Öz növbəsində dövlət təsisat olmaq etibarilə vətəndaş cəmiyyətinin varlığı və fəaliyyəti üçün şərait yaradır.
3. dövlət vətəndaş cəmiyyətinin ifadəsidir, onun varlığının inikasıdır. Vətəndaş cəmiyyəti fərdi, qrup halında və regional mənafelərin təzahürü sferasıdır. Vətəndaş cəmiyyətinin tələbləri dövlətin iradəsi sayəsində reallaşır.
4. vətəndaş cəmiyyəti nə qədər çox inkişaf etmiş olarsa (öz üzvlərinin fəaliyyəti, təşəbbüskarlığı mənasında) dövlətin demokratikliyi üçün bir o qədər meydan açılır.

M.Valtserin fikrincə, O dövlət məfhumundan, istənilən təzyiq və təsirdən azad, ticari həyat uğrundakı axtarışların nəticəsi olaraq müxtəlif dəyərlərin cəmidir. A.Smitə görə isə vətəndaş cəmiyyəti təbii istəklə və bir-biri ilə ünsiyyətdə olmaq mühitidir (10, 203).

Vətəndaş cəmiyyətinin əsasını cəmiyyətdəki qeyri-siyasi və iqtisadi münasibətlər təşkil edir. Yəni vətəndaş cəmiyyəti heç də siyasi cəmiyyət demək deyil. Buradakı vətəndaşların da siyasi fəallığı siyasi sosiallaşma prosesidir ki, bu da onların yaratmış olduqları müxtəlif biliklər vasitəsi ilə (partiya, klub, dini qurum, hərəkatlar, kooperativ-işgüzar assosiasiyalar) vətəndaş ilə dövlət arasında əlaqə yaradır.

Ümumiyyətlə bu cəmiyyəti həm musiqi, həm mülki, sivil, həm də iqtisadi mühit kimi adlandırmaq olar. Vətəndaş cəmiyyəti hüquqi baxımdan azad fərdlər birliyinə əsaslanır. Dövlətin birbaşa müdaxiləsi yoxdur. Lakin bu mühit dövlətin buradakı vətəndaşların hüquqlarını müdafiə edən qanunları ilə tənzimlənir. Buradakı vətəndaş azaddır və bu azadlıq və özünüifadə hüququ ona tanınır. Kantın da dediyi kimi vətəndaş cəmiyyətindəki insanlar dövlətdən asılı deyil və tam sərbəstdirlər. Yəni vətəndaş cəmiyyəti müstəqil, eyni zamanda fəal insanlardan ibarət, dövlət və hakimiyyət istibdadından kənar, liberal qanunlar vasitəsilə tənzimlənən özünü ifadə mühitidir.

Cəmiyyətə birmənalı təsirsiz hüquqi dövlət doğrudan da vətəndaş cəmiyyətinə real imkan yaradır. Belə ki, avtoritar rejimdə vətəndaş cəmiyyətinin mövcudluğu abstraktdır. Lakin hüquqi dövlətdə, bazar münasibətləri və iqtisadi cəhətdən müstəqil insan kütləsi məkanında vətəndaş cəmiyyətinin olması mümkündür. Vətəndaş cəmiyyəti siyasi yox, sosial cəmiyyətdir. Bura siyasi

elitanın "söz köçürməsi" cəmiyyətin liberallığına şübhə yaradır. Nəzərə alsaq ki, onun özəyi iqtisadi sərbəstlikdir və sərbəstlik demokratiyanı yaradan şərtlərdən biridir və demokratik şəraitdə hüquqi dövlət daha da inkişaf edir, onda prosesin bir-biri ilə labüd bağlılığı göz önündədir. Kantın da dediyi kimi, ümumdünyəvi vətəndaş cəmiyyətinin formalaşması demokratiyanın yaranması deməkdir (6, 43).

Düzdür qeyri-demokratik şəraitdə də cəmiyyət mövcuddur. Lakin bu cəmiyyət hakimiyyət strukturlarının nəzarəti altında olur və onlara hesabat verir. Məsələn avtoritar rejimdə əgər vətəndaş cəmiyyətini təşkil edən qrumlar dövlət tərəfindən təsdiq edilir, birbaşa onun nəzarəti altına alınarsa, demokratiya şəraitində cəmiyyət nəzarətdən azaddır və əksinə, cəmiyyət yox, dövlət ona hesabat verir. Bir sözlə: vətəndaş cəmiyyəti yalnız yüksək inkişaf etmiş hüquqi dövlət çərçivəsində fəaliyyət göstərə bilər. Belə dövlət vətəndaş cəmiyyətinə "qanunun qadağan etmədiyi hər işi görməyə" imkan verir, ona şərait yaradır, hüquqlarını müdafiə edir. Vətəndaş cəmiyyəti isə öz növbəsində ölkə qanunlarına riayət edir. Əslində bu göstəricilər arasında tam demokratik əlaqə var və bu iki tərəfə də xeyir verir. Yəni vətəndaş cəmiyyəti dövlətdən asılı deyil lakin onunla məqsədinə doğru "qarşılıqlı anlayış" şəraitindən fəaliyyət göstərir.

Vətəndaş cəmiyyətinin inkişafı dövlətin inkişafı deməkdir. Bu iki tərəfin inkişafı isə siyasi sistemin inkişafıdır. O siyasi sistemin ki, o vətəndaş cəmiyyətinə dövlət müdaxiləsinin qarşısını alır. Deməli nəticədə istər vətəndaş cəmiyyətinin, istərsə də hüquqi dövlətin mövcudluğu üçün hər ikisinin birgə vəhdət təşkil etməsi mütləqdir.

### ƏDƏBİYYAT


1. Aristotel. Politika. Bakı: BDU, 1997, 280 s.
2. Davletşina N.V., Kimlika B.B., Klark R.C., Rey D.U. "Demokratiya: dövlət və cəmiyyət". Bakı: 1999, 385 s.
3. Lazerov V.V. "Ümumi hüquq və dövlət nəzəriyyəsi". Bakı: Qanun, 2007 (tərcümə), 461 s.
4. Platon. Dövlət. Bakı: Təbib, 1999, 358 s.
5. Əfəndiyev M. "Siyasi elm". Bakı: Siyasət, 2010, 860 s.
6. Babaoğlu H. "İnsan hüquqları və azadlıqları". Bakı: Elm, 2006, 241 s.
7. Hacızadə H. Demokratiya: Gediləsi uzun bir yol. Bakı: Elm, 2002, 445 s.
8. Dr. Fərhad Mehdiyev. Nəzəriyyə və təcrübədə insan hüquqları. Bakı: Adiloğlu. 2009, 988 s.
9. Nağıyev F. Konstitutsiya hüququ. Bakı: Qanun, 2009, 147 s.
10. Xropanyuk V.N. "Dövlət və hüquq nəzəriyyəsi". Bakı: Elm, 2009 (tərcümə).


## ГНОСЕОЛОГИЯ, ОПЫТ И ТРАДИЦИИ В СОЗДАНИИ ПРАВОВОГО ГОСУДАРСТВА


**Г.Г.МАМЕДОВ**


### РЕЗЮМЕ


В работе широко рассматриваются проблемы сущности государства, воззрении о правовом государстве, юридической гносеологии. Также анализируются условия формирование правового государства и принципы его существования. Автор

рассматривает формирования правового государства в процессе воздействия на него опыта и традиций, психологии того или иного народа. Особое внимание уделено проблеме взаимоотношений государства и граждан.

**Ключевые слова:** государство, право, закон, гражданин, общество, свобода, власть

## JURIDICAL PSYCHOLOGY, EXPERIENCE AND TRADITIONS AND CUSTOMS IN THE ESTABLISHMENT OF A JURIDICAL STATE

**H.G.MAMMADOV**

### SUMMARY

The paper studies the essence of juridical state, views about juridical state and juridical gneseology, as well as the role of the establishment of a juridical state, its existence conditions, and experience in its development. Besides, the principles of existence of a civil society and juridical state have got their expression in the presented article.

**Key words:** state, law, citizen, society, freedom, government, juridical